**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PSİXOAKTİV MADDƏ İSTİFADƏÇİLƏRİNİN SOSİAL-PSİXOLOJİ REABİLİTASİYASI

| | |
|---|---|
| İxtisas: | 611401-“Sosial psixologiya” |
| Elm sahəsi: | Psixologiya |
| İddiaçı: | **Ramin Fazil oğlu Allahverdiyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2025**

Dissertasiya işi Bakı Dövlət Universitetinin sosial və pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya elmləri doktoru, professor
**Elnarə İbrahim qızı Şəfiyeva**

Rəsmi opponentlər: psixologiya elmləri doktoru, professor
**Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Südabə Novruzəli qızı Hüseynova**

psixologiya üzrə fəlsəfə doktoru
**Afərim Əli qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

__________________

Dissertasiya şurasının elmi katibi: psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

__________________

Elmi seminarın sədri: psixologiya elmləri doktoru, professor
**Rəna Həmid qızı Qədirova**

__________________

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə səviyyəsi.** Müasir dünyada cəmiyyətin inkişafı ilə bağlı meydana çıxan və qloballaşan bir sıra asılılıqlar, insanların fiziki sağlamlığı ilə yanaşı, psixoloji sağlamlığını da təhlükə altına almışdır. Belə problemlər nəinki psixologiyanın, eyni zamanda cəmiyyətin və insanlığın qlobal problemlərindən biridir. Son illərin statistikası göstərir ki, psixoaktiv madəllərdən istifadə edən şəxslərin sayı durmadan artır. Qeyd edək ki, müasir dövrün bəlası sayılan psixoaktiv madələrdən istifadə bütün sahələrə nüfuz edərək, ictimai həyatın ritminə mənfi təsir göstərir. Hazırda bəşəriyyətin ən təhlükəli problemi olan psixoaktiv madələrdən istifadə bütün dünyanın diqqətini özünə cəlb etmişdir. Bu baxımdan onunla mübarizə aparmaq, onun aradan qaldırılması yollarını müəyyənləşdirmək bu gün bütün bəşəriyyətin qarşısında duran çox mühüm məsələlərdən biri hesab olunur.

Qeyd edək ki, psixoaktiv maddə istifadəçiləri ilə aparılan mübarizənin dövlət əhəmiyyətli məsələ hesab olunması təsadüfi deyil. Onların hesabına fabrik və zavodlar, müəssisə və idarələr, bütünlükdə isə dövlət böyük maddi zərər çəkir. Narkotik vasitələrdən sui-istifadə edən şəxslərdə əməyin məhsuldarlığı azalır, ümumilikdə isə əməyə, işə, ailəyə, dostlara qarşı maraq tamamilə itmiş olur. Bütün bunlar günü-gündən artmaqda olan psixoaktiv maddə istifadəçilərinin ən vacib əlamətləri hesab olunur.

Psixoaktiv maddə istifadəçilərində psixoloji və fizioloji dəyişmələr yaranır ki, bunun da nəticəsində psixoaktiv maddə istifadəçilərinin davranışında problemlər meydana gəlir. Bu da onların davranışında dəyişkən emosionallıqla, qeyri-adekvat emosional reaksiyalarla, gözlənilməz əhval-ruhiyyə, əsəbilik və aqressiya ilə müşahidə olunan cox ciddi problemlərin baş verməsinə gətirib çıxarır. Belə vəziyyət isə qarşılıqlı münasibətlərdə çətinlik, münaqişə, mübahisə və başqa aqressiv davranışların yaranmasına səbəb olur.[1]

Son zamanlar zərərli maddələrin istifadəsinin geniş vüsət alması və onun bioloji, sosial və psixoloji cəhətdən təsir mexanizmlərinin müəyyən olunması maddə istifadəçiləri ilə reabilitasiya işinin zəruri-

[1] Miller, W.R., Carroll, K.M. The Cambridge Handbook of Substance and Behavioral Addictions. // Cambridge University Press. -2020. -p.12-13.

liyini aktuallaşdırmışdır. Mütəxəssislər böyük araşdırmalar nəticəsində ortaq fikrə gələrək, psixoaktiv maddə istifadəçisi ilə reablitasiya prosesinin psixoaktiv maddəyə qarşı deyil, maddə istifadəçisinin psixoaktiv maddə qəbul etdiyi zaman xoş hiss və fantaziyalar dünyasında, həqiqi həyatdan qaçaraq gizlənməsi qorxusuna qarşı, yəni motivasiya sferasının və sosial-psixoloji problemlərinin həllinin tapılıb, mövcud vəziyyətin korreksiya edilməsi işinə yönəldilməli olduğunu müəyyən etmiş oldular. Buna görə psixoaktiv maddə asılılığı olan xəstələrin tibbi, sosial və psixoloji reabilitasiyası narkologiyanın prioritet sahələrindən biridir.

Aparılmış tədqiqatların təhlilindən aydın olur ki, psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası müxtəlif aspektlərdə araşdırılmışdır. Problemlə bağlı mövcud ədəbiyyatın təhlilindən çıxış edib, üç istiqamət fərqləndirmək olar:

1. Tibbi istiqamətdə aparılan tədqiqatlar;
2. Klinik psixologiya və psixoterapevtik istiqamətdə aparılan tədqiqatlar;
3. Sosial-psixoloji istiqamətdə aparılan tədqiqatlar.

Bütün istiqamətlərdə aparılmış tədqiqatlar nəticəsində, demək olar ki, problemin ayrı-ayrı cəhətləri diqqət mərkəzinə gətirilərək, onun təzahürünün və fəsadlarının səviyyəsi öyrənilmişdir.

Birinci istiqamətdə aparılmış tədqiqatlarda bu problemin etimologiyası və gedişi, onun yarada biləcəyi fəsadlar diqqət mərkəzinə gətirilmişdir.

İkinci istiqamət klinik psixologiyada və psixoterapiyada aparılmış tədqiqatlardır. Bu tədqiqatlarda, əsasən, psixoaktiv maddə istifadəçilərinə göstərilən psixoloji yardım və bu prosesdə effektiv olan terapiya metodlarının roluna toxunulmuşdur.

Üçüncü istiqamət isə, daha çox, sosial-psixoloji istiqamətdə aparılmış tədqiqatlardır. Burada başlıca məsələ psixoaktiv maddədən istifadə etməyə səbəb olan sosial-psixoloji amillərin roluna diqqət yetirilmişdir.

Tədqiqat prosesində görkəmli alimlərimizdən Ə.S.Bayramov, M.Ə.Həmzəyev, Ə.Ə.Əlizadə, B.H.Əliyev, R.Ə.Cavadov, S.İ.Seyidov, R.İ.Əliyev, E.İ.Şəfiyeva, R.H.Qədirova, R.V.Cabbarov, M.H.Mustafayev və başqalarının əsərlərindən bəhrələnmiş, onlardan

baza sistem kimi istifadə etmişik. Psixoaktiv maddələrdən asılılıq probleminin və sosial-psixoloji reabilitasiya prosesinin öyrənilməsi zamanı V.M.Bexterev, F.V.Basin, B.D.Karvasarskiy tərəfindən tiryək istifadəçisi olan şəxsiyyətin tədqiqinə sistemli yanaşma, B.Q.Ananyev, A.A.Bodalyov, V.V.Kozlov, V.V.Novinkov tərəfindən reabilitasiya prosesinə fəaliyyət və inteqrativ yanaşmalar, E.Liçko, V.V.Stolin tərəfindən şəxsiyyətin diaqnostikasına kompleks yanaşma, 1990-cı ildə T.A.Donskix; 1976, 1978, 1990-cı illərdə T.P.Korolenko; 1998-ci ildə L.Q.Leonov, N.L.Boçkaryov, 1988-ci ildə C.Nakken; 1988-ci ildə Schaef A.F, Fassel D; 1988-ci ildə Segal B; 1990-cı ildə Moody G tərəfindən psixoaktiv maddələrdən asılılığa addiktiv davranış növü kimi yanaşma (bu yanaşma çərçivəsində psixoaktiv maddələrdən istifadəyə şəxsiyyətin xoşagəlməz psixi vəziyyətləri özü-özlüyündə tənzimləməsi üsulu kimi baxılmışdır) işlənib-hazırlanmış, 1975-ci ildə Y.E.Sosnovikov; 1997-ci ildə T.M.Maryutin, O.Y.Yermolayev tərəfindən funksional vəziyyətlərin müəyyən struktura malik sistemli hadisələr olması barədə, 1995-ci ildə O.S.Kopina, E.A.Suslova, E.V.Zaikin tərəfindən psixoemosional gərginlik vəziyyətlərinin strukturunda mənfi affekt əlamətlərinin (frustrasiya, stress, həyəcan, depressiya) üstünlük təşkil etdiyi müxtəlif xoşagəlməz emosional vəziyyətlərin təzahürü olması barədə təsəvvürlər formalaşdırılmışdır.[1]

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini sosial-psixoloji reabilitasiya prosesi təşkil edir. Tədqiqatın predmetini isə psixoaktiv maddələrdən asılı olanların reablitasiya prosesinin qanunauyğunluqları və təzahür xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatda qarşıya qoyulmuş başlıca məqsəd xüsusi metodikaların, psixoloji eksperimentlərin köməyi ilə psixoaktiv maddələrdən asılı olanların şəxsiyyət xüsusiyyətləri ilə davranışının təhlili və bununla bağlı tövsiyyələr hazırlamaqdan ibarətdir. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

1. Psixoaktiv maddələrdən asılı olanlardan ibarət tədqiqat qru-

---

[1] Mustafayev, M.H., Allahverdiyev, R.F. Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyasında həyata keçirilən terapiya üsulları və müasir yanaşmalar.// -Bakı: Bakı Dövlət Universiteti, Psixologiya jurnalı. -2020. –s.55-65.

puna daxil olan şəxslərin sosial-psixoloji xüsusiyyətlərinin, onların sosial-psixoloji reabilitasiyasına imkan yaradan sosial-psixoloji şəraitlərin öyrənilməsi.

2. Psixoaktiv maddələrdən asılı olanlardan ibarət tədqiqat qrupunda destruktiv şəxsiyyət dəyişikliklərinin meyarlarının aşkar edilməsi:

1. Sosial-psixoloji reabilitasiya prosesində şəxsiyyətin sosiallaşmasının və sosial dəyərlərinin formalaşma dinamikasının tədqiq edilməsi.

2. Psixoaktiv maddələrdən asılı olanların psixoloji müşayiət edilməsi üzrə proqramın işlənib-hazırlanması və onun stasionar şəraitdə reallaşdırılması üzrə metodik tövsiyələrin irəli sürülməsi.

**Tədqiqatın fərziyyəsi. S**osial-psixoloji reabilitasiya prosesində şəxsiyyətin sosiallaşması və harmonik şəxsiyyətlərarası münasibətlər qurması üçün şərait yaradır.

Tədqiqat gedişində bu əsas fərziyyə ilə yanaşı, bəzi əlavə fərziyyələr də irəli sürülmüşdür:

- Sosial-psixoloji reabilitasiya prosesi destruktiv şəxsiyyət dəyişikliklərini aradan qaldırmağa kömək edir.
- Psixoaktiv maddələrdən asılı olan şəxslər qrupunda aktiv sosial-psixoloji metodlardan istifadə edilməsi səmərəli qarşılıqlı təsirin formalaşmasına şərait yaradır.
- Spesifik sosial-psixoloji reabilitasiya gedişində konstruktiv şəxsiyyətin inkişafının kompensator sistemi formalaşır.

Tədqiqatın məqsədi və irəli sürülmüş fərziyyələri işin aşağıdakı vəzifələrinin müəyyən edilməsinə imkan verir:

1. Psixoaktiv maddələrdən asılılıq probleminə həsr olunmuş müxtəlif tədqiqat işlərinin və elmi ədəbiyyat nümunələrinin, eləcə də sosial-psixoloji reabilitasiya üzrə praktik proqramların və metodların konseptual şəkildə təhlil edilməsi.

2. Psixoaktiv maddələrdən asılı olanlardan ibarət tədqiqat qrupuna daxil olan şəxslərin sosial-psixoloji xüsusiyyətlərinin, onların sosial-psixoloji reabilitasiyasına imkan yaradan sosial-psixoloji şəraitlərin öyrənilməsi.

3. Psixoaktiv maddələrdən asılı olanlardan ibarət tədqiqat qrupunda destruktiv şəxsiyyət dəyişikliklərinin meyarlarının aşkar edilməsi.

4. Sosial-psixoloji reabilitasiya prosesində şəxsiyyətin sosial-

laşmasının və sosial dəyərlərinin formalaşma dinamikasının tədqiq edilməsi.

5. Psixoaktiv maddələrdən asılı olanların psixoloji müşayiət edilməsi üzrə proqramın işlənib-hazırlanması və onun stasionar şəraitdə reallaşdırılması üzrə metodik tövsiyələrin irəli sürülməsi.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində psixoaktiv maddələrdən asılı olanların sosial-psixoloji reabilitasiyası probleminin tədqiqi ilə bağlı konkret vəzifələri həyata keçirmək üçün zəruri metodlardan müşahidə, psixoaktiv maddələrdən asılı olan şəxslərlə anket sorğusu, koqnitiv davranış terapiyalarından, nəticələrin kəmiyyət və keyfiyyət təhlili üsullarından istifadə edilmişdir.

Tədqiqatda Bakı şəhərində yerləşən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzində stasionar şəraitdə müalicə alan 18-55 yaş aralığında 200 nəfər psixoaktiv maddələrdən asılı olan şəxs iştirak etmişdir. Sonda əldə edilmiş nəticələrin kəmiyyət və keyfiyyət təhlili aparılmış, yekun nəticələrin işlənilməsində SPSS-21 riyazi-statistik proqramından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda ilk dəfə psixoaktiv maddə istifadəçilərinin davranışı sosial psixoloji aspektdə araşdırılır, psixoaktiv maddədən istifadənin yaranma səbəbləri, onun psixika, davranış və münasibətlər sisteminə təsiri öyrənilir, aradan qaldırılmasının səmərəli yolları müəyyənləşdirilir.

Psixoaktiv maddələrdən asılı olma səbəblərinə və şəxsiyyətin psixoloji statusundakı dəyişikliklərə olan elmi yanaşmalar reabilitasiya işində onlardan istifadə olunması baxımından sistemləşdirilmiş və təhlil edilmişdir. Azərbaycanda psixoaktiv maddələrdən asılı olan şəxslərin sosial-psixoloji reabilitasiyanın sistemli təhlili aparılmış, sosial-psixoloji reabilitasiyanın pozitiv və neqativ profilləri aşkar edilmişdir.

Psixoaktiv maddələrdən asılı olanlara səmərəli reabilitasiya yardımının göstərilməsi üzrə istiqamətlərin axtarılması və aşkar edilməsi məqsədilə nəzəri materialların və korreksiya-reabilitasiya işləri üzrə xarici təcrübənin təhlili həyata keçirilmiş, bu cür işlərin ümumi prinsipləri müəyyən edilmişdir. Stasionar şəraitdə psixoaktiv maddələrdən asılı olanlarla reabilitasiya işinin ümumi prinsipləri reabilitasiya prosesinin bütün iştirakçılarının şəxsiyyət sferalarındakı mövcud resurslara təsirinə əsaslanır.

– Azərbaycanda stasionar şəraitdə müalicə alan, psixoaktiv maddələrdən asılı olan şəxslərin sosial-psixoloji xüsusiyyətlərinin kompleks analizi həyata keçirilmişdir ki, bu da reabilitasiya prosesinin icra edilməsi imkanlarının genişləndirilməsi üçün şərait yaradır. Reabilitasiya işinin ənənəvi istiqamətlərindən (şəxsiyyətin emosional və iradi sferalarının korreksiyası) başqa, psixoaktiv maddələrdən asılı olan xəstələrin idraki aktivliyini də inkişaf etdirməyin zəruri olduğu sübut edilmişdir.

– Aşkar edilən sosial-psixoloji reabilitasiya istiqamətlərinin əsasında psixoaktiv maddələrdən asılı olan şəxslərin ilkin mərhələdə stasionar şəraitdə müalicə alma prosesinin sosial-psixoloji müşayiəti üzrə proqram işlənib-hazırlanmışdır. Proqramın əsasını koqnitiv-idraki yanaşma təşkil edir ki, bu da, öz növbəsində, şəxsiyyətin öz potensialını və özünütədqiq sahəsində müxtəlif davranış formalarını mənimsəməklə, öz idraki aktivliyini artırmağa hazır olmasının dərk etməsindən ibarətdir.

– Psixoaktiv maddələrdən asılı olan şəxslər qrupunda reallaşdırılan sosial-psixoloji reabilitasiya prosesində şəxsiyyət dəyişikliklərinin dinamikası və şəxsiyyətlərarası münasibətlərin ahəngdarlığı müəyyən edilmişdir.

– Reabilitasiya mərkəzində psixoaktiv maddələrdən asılı olan şəxslərdə şəxsiyyətin inkişafının və konstruktiv şəxsiyyətlərarası münasibətlərin öyrənilməsinin müqayisəli təhlili həyata keçirilmişdir.

**Müdafiəyə təqdim edilən müddəalar**:

**1.** Şəxsiyyətin psixoaktiv maddələrdən asılılıq prosesi psixi, sosial və pedaqoji amillərlə şərtlənir. Psixoaktiv maddələrdən asılı olan fərd həyat fəaliyyətinin bütün səviyyələrində: orqanizm, psixika, sosial-psixoloji sfera, bilik, bacarıq və vərdişlərlə bağlı zədələrə məruz qalır. Bu səbəbdən də səmərəli sosial-psixoloji reabilitasiya sistemi bütün zədələnmiş səviyyələrə təsir göstərə bilən bərpaedici tədbirləri əhatə etməlidir. Şəxsiyyətin və onun mövcud olduğu mühitin korreksiyasına sistemli yanaşma psixoaktiv maddələrdən asılılığın psixoloji strukturuna daha adekvat təsir göstərir.

**2.** Psixoaktiv maddələrdən asılı olanların öz sosial-psixoloji potensialını və imkanlarını dərk etməsi, onlardan özünü və situasiyaları dəyişmək üçün istifadə etməsi praktik reabilitasiya işinin əsasını təşkil etməlidir.

**3.** Psixoaktiv maddələrdən asılı olan şəxsiyyətin strukturunda aşağıdakılar baş verir:

– idraki sferada: digər idrak proseslərinin qorunub-saxlanmasının ümumi fonunda hafizə və təfəkkürün zəifləməsi;
– iradi sferada: fərdi özünütənzimləmə prosesinin pozulması;
– emosional sferanın kəskin pozulması;
– psixofizioloji özünütənzimləmə sisteminin pozulması;
– "Mən-konsepsiya"nın pozulması və buna paralel olaraq insanın özü haqqında təhrif olunmuş kompensator təsəvvürlərinin formalaşması;
– şəxsi xüsusiyyətlər sırasında yeni spesifik dəyərlər sisteminin formalaşması müəyyən edilib;
– ailədə, təhsil və ya peşə fəaliyyəti prosesində şəxsiyyətlərarası münasibətlər sisteminin pozulması;
– sərt rollu davranış strukturlarının formalaşması;
– yaşantılar üzrə transpersonal təcrübənin dəyəri və əhəmiyyəti haqqında təsəvvürlər sisteminin formalaşması.

**4.** Stasionar şəraitdə səmərəli reabilitasiya sistemi zədələnmiş şəxsiyyətin bütün səviyyələrinə təsir üzrə bərpaedici sosial-psixoloji tədbirləri əhatə etməlidir. Reabilitasiya sisteminin üç əsas elementi: reabilitasiya mühiti, reabilitasiya subyekti və qrup fəaliyyəti arasında uyğunlaşdırılmış qarşılıqlı təsir üzrə xüsusi psixoloji, pedaqoji və təşkilati səylərin göstərilməsi vacibdir. Bunun üçün psixoaktiv maddələrdən asılı olanların reabilitasiyası zamanı əsas diqqət şəxsiyyətin koqnitiv və idrak baxımından yanaşmasına cəmlənməlidir ki, burada onların öz potensialını, qorunub-saxlanan resurslarını və özünün pozulmuş şəxsiyyət sferalarını dərk etməyə, inkişaf etdirməyə və onları dəyişməyə olan hazırlığını özünün anlamasını nəzərdə tutulur.

**5.** Reabilitasiya prosesində şəxsiyyət yüksək dərəcədə uyğunlaşma və stabilləşmə istiqamətində mühüm transformasiya nümayiş etdirir, daxili və xarici konfliktliliyi azalır, sosial cəhətdən maraqlılığı artır, kommunikativ vərdişləri inkişaf edir, eləcə də onun məhsuldar fəaliyyəti əhəmiyyətli dərəcədə artır.

**6.** Transpersonal psixologiya metodları əsasında qurulan məşğələlər subyekt üçün əhəmiyyətli olan vəziyyətlərin yaranmasına şərait yaradır ki, bu da onun şəxsi inkişafına və daxili ahəng əldə etməsinə imkan verir.

**7.** Sosial-psixoloji reabilitasiyanın və refleksiyanın inkişafının nəticəsi kimi, özü haqqında təsəvvürlər və özünü hiss etmə arasındakı uyğunsuzluq aradan qalxır, şəxsiyyətin "Mən-konsepsiyası"nın "dərk olunan və dərk olunmayan" hissələri bir-birinə yaxınlaşır və normallaşır.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatdan alınmış nəticələr ümumi və klinik psixologiyanı, psixofiziologiyanı yeni biliklərlə zənginləşdirir. Psixoaktiv maddələrdən asılı olan şəxslərdə şəxsiyyətin sosial-psixoloji izahı üçün sosial-psixoloji qanunauyğunluqların müəyyənləşdirilməsinə və sistemləşdirilməsinə nail olunmuşdur. Tədqiqatın nəticələrindən sosial psixologiya və klinik psixologiyanın, eləcə də müəyyən xüsusi fənlərin tədrisində elmi-nəzəri mənbə kimi istifadə edilə bilər. Tədqiqatda əldə olunmuş nəticələr psixoaktiv maddələrdən asılı olan şəxslərin psixoterapiyasında, gənclərin sağlam həyat tərzi ilə bağlı tərbiyəsində istifadə oluna bilər. Yaradılmış konseptual əsaslar və tövsiyələr bu sahədə çalışan mütəxəssislərin elmi və praktik fəaliyyətində, maarifçilik işinin aparılmasında dəyərli mənbədir. Tədqiqat işinin materiallarından elmi-metodik tövsiyələrin, dərslik və dərs vəsaitlərinin hazırlanmasında, elmi işçilərin tədqiqat işlərində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın nəticələri müəllifin yerli və beynəlxalq elmi mətbuatda dərc olunmuş məqalə və tezislərində əksini tapmışdır. Bakı Dövlət Universitetində mühazirə və seminarlarda iş aparmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universitetinin sosial və pedaqoji psixologiya kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla, dissertasyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi – titul səhifə - 362 işarə, mündəricat -1052 işarə, giriş – 15157 işarə, I fəsil – 61439 işarə, II fəsil – 111978 işarə, III fəsil – 49049 işarə, nəticə – 28402 işarədən ibarətdir. İşin ümumi həcmi – 287927 işarədir.

# İŞİN ƏSAS MƏZMUNU

Girişdə problemin aktuallığı, onun işlənmə səviyyəsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, fərziyyəsi, metodları, elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir və müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir.

Dissertasiyanın "**Psixoaktiv maddə asılılığının sosial-psixoloji tədqiqinə dair elmi araşdırmalar**" adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. Birinci fəslin "Psixoaktiv maddələrdən asılılığın formalaşması prosesi" adlı birinci paraqrafında psixologiyada əsas elmi yanaşmaların nümayəndələri tərəfindən maddə asılılğı ilə bağlı irəli sürdükləri müdəallara aydınlıq gətirilir. Burada bu anlayışının məzmunu açıqlanır, bu sahədə aparılmış psixoloji tədqiqatlar sistemləşdirilir, yəni problemi öyrənməyə çalışmış tədqiqatçıların əsərləri təhlil olunur, adaptasiya anlayışının genezisi aydınlaşdırılır. Qeyd olunur ki, maddə asılığı prosesinə müxtəlif yanaşmalar mövcuddur. Psixoaktiv maddələrdən istifadəçilərinin psixoloji xüsusiyyətləri araşdırılmış, psixoaktiv maddə qəbulundan sonrakı dövrdəonların yaşadığı psixopatoloji hallar sosial-psixoloji aspektdən araşdırılmış, bu sahədə aparılmış tədqiqatların nəticələri haqqında qeydlər edilmişdir. Eyni zamanda psixoaktiv maddələrdən asılılığın yaratdığı sosial-psixoloji problemlər geniş şəkildə müəllif tərəfindən şərh edilmişdir.[1]

Birinci fəslin "Asılı şəxslərdə özünü göstərən sosial-psixoloji dəyişikliklər" adlı ikinci yarımfəslində asılı şəxslərdə özünü göstərən sosial-psixoloji dəyişikliklərin mexanizmlərinə aydınlıq gətirilmişdir. asılılıq anlayışı, addiktiv davranış, psixoaktiv maddələrdən asılı olan şəxslərdə asılılığın müxtəlif mərhələlərində baş verən şəxsiyyət və sosial-psixoloji dəyişikliklərin dinamik inkişafı, psixoaktiv maddələrdən istifadə zamanı yaranan psixoloji asılılıq probleminə elmi yanaşmalar, asılılıq üzrə aparılmış elmi tədqiqatların müasir vəziyyəti təhlil olunur. Bu yarımfəsildə eyni zamanda asılılığın tədqiqi istiqamətlərinə aydınlıq gətirilir və sistemləşdirir.

Dissertasiyanın "Psixoaktiv maddələrdən asılı olan şəxslərin

---

[1] Mars, S.G. Every 'never' I ever said came true: transitions from opioid pills to heroin injecting / S.G.Mars, P.Bourgois, G.Karandinos [et al.] // International Journal of Drug Policy, -2014. №25 (2), -p. 124.

sosial-psixoloji reabilitasiya prosesinin təşkili" adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. sosial-psixoloji reabilitasiya prosesinin təşkili, psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası sahəsində sistemli nəzəriyyələr və mövcud problemə dair elmi yanaşmalar, reabilitasiya gedişində tətbiq edilən müxtəlif metodlar, texnikalar, proqramlar, terapiyalar və reabilitasiya şəraitinin əsas xüsusiyyətlərinin təhlilinə dair məsələlər təhlil olunur və sosoail-psixoloji aspektləri öyrənilir. Alkoqol və psixoaktiv maddələrdən asılı olan şəxslərin psixoloji reablitasiyasının əsasını onların davranışlarının dəyişdirilməsi və sağalmağa doğru irəliləmə üzrə motivasiya işi, eləcə də residivin profilaktikası təşkil edir.

İkinci fəslin ikinci yarımfəsli "Sosial-psixoloji reabilitasiya prosesinə hazırlıq və Motivasiyaedici Görüş texnikasının həyata keçirilmə qaydaları" adlanır. Bu yarımfəsildə Psixoaktiv maddə asılılığı olan şəxs öz düşüncə və həyat tərzində köklü dəyişikliklərin zəruriliyini dərk etməzsə, bu zaman qeyd edilənlər əsasında aparılan müalicə və reablitasiya uğurlu olmayacaqdır. Asılılığı aradan qaldırmaq uzunmüddətli və bir neçə xüsusi mərhələdən ibarət bir prosesdir. Hər mərhələdə müəyyən vəzifələr həll olunmalı və müəyyən bacarıqlar inkişaf etdirilməlidir. Psixoaktiv maddədən asılı olan şəxs bu istiqamətdə daim irəliləməyə, qarşıya qoyulmuş məsələləri tam şəkildə yerinə yetirməyə və məqsədlərə çatmağa hazır deyilsə, dəyişikliklərdən davamlı çəkinirsə və bu problemi effektiv şəkildə aradan qaldırmağa çalışmırsa, o zaman qəza qaçılmazdır. Bununla əlaqədar olaraq, şəxsin sağalmasının bütün mərhələ və pillələrində motivasiya üzərində iş aparmağın zəruriliyi meydana çıxır. Bu baxımdan bu fəsilin araşdırılması və təhlil olunması çox vacib meyardır.

İkinci fəslin "Reabilitasiya prosesində tətbiq edilən müxtəlif metodlar və reabilitasiya şəraitinin əsas xüsusiyyətlərinin təhlili" adlanan üçüncü yarımfəslində Bu fəsildə psixoaktiv maddələrdən asılı olan şəxslərin sosial-psixoloji reabilitasiya prosesinin təşkili ilə bağlı sosial psixoloji məsələlər təhlil edilmişdir. Bu fəsildə müəllif tərəfindən sosial-psixoloji reabilitasiya prosesində sistemli nəzəriyyələr və mövcud problemə dair elmi yanaşmalar təhlil edilərək sistemləşdirilmişdir. Eyni zamanda sosial-psixoloji reabilitasiya prosesinə hazırlıq və motivasiyaedici görüş texnikasının həyata keçirilmə qaydaları şərh edilmiş,

reabilitasiya prosesində tətbiq edilən müxtəlif metodlar və reabilitasiya şəraitinin əsas xüsusiyyətlərinin təhlili verilmişdir.[1]

Dissertasiyanın “Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası prosesinin tədqiqi” adlanan üçüncü fəsli müəllifin apardığı elmi tədqiqatın təsviri, təhlili və şərhinə həsr edilmişdir. Üçüncü fəslin “Tədqiqatın təşkili, keçirilməsi və təhlili” adlanan birinci yarımfəslində tədqiqat prosesində istifadə olunan üsullar təsvir olunur. Bu tədqiqatda Bakı şəhərində yerləşən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzində stasionar şəraitdə müalicə alan 18-55 yaş aralığında 200 nəfər psixoaktiv maddələrdən asılı olan şəxs iştirak etmişdir. Sonda əldə edilmiş nəticələrin kəmiyyət və keyfiyyət təhlili aparılmış, yekun nəticələrin işlənilməsində SPSS-21 riyazi-statistik proqramından istifadə edilmişdir.

Üçüncü fəslin ikinci yarımfəsli “Tədqiq olunanların sosial-demoqrafik əlamətləri və psixoloji vəziyyətin təyini” adlanır. Bu yarımfəsildə tədqiqatın nəticələri təhlil olunur. Əvvəlcə demoqrafik göstəricilərin statistik təhlili verilmişdir ki, bu da müxtəlif amillərin təsir dərəcəsinin aydınlaşdırılmasında mühüm rol oynayır. Sorğular vasitəsilə şəxsiyyətin psixoaktiv maddələrdən asılılığının təşəkkülü, inkişafı və bu inkişafa təsir göstərən amilləri şərh edir. Müəllif bu cür davranışın yaranmasının səbəblərini sadəcə olaraq sadalamaqla kifayətlənmir, onların aradan qaldırılması yollarını, bu istiqamətdə böyük əhəmiyyət kəsb edən psixopofilaktik, reabilitasiya tədbirləri haqqında məlumat verilir.

Üşüncü fəslin üçüncü yarımfəsli “Psixoaktiv maddə istifadəçiləri ilə aparılan sosial-psixoloji iş zamanı alınan nəticələr və onların praktik əhəmiyyəti” adlanır.

Onu da qeyd edək ki, tədqiq olunanların eksperimental və kontrol qrup üzrə demoqrafik əlamətlərini əks etdirən bütün bu göstəricilər cədvəl 1-də öz əksini tapmışdır. Buna görə də cədvəl 1-ə ətraflı nəzər salaq.

[1] Miedl, S.F., Peters, J. & Buchel, C. Altered neural reward representations in pathological gamblers revealed by delay and probability discounting. // Archives of General Psychiatry, -2012. 69(2), -p.177.

**Eksperimental və kontrol qrup tədqiq olunanların demoqrafik əlamətləri**

**Cədvəl 1**

| **Demoqrafik xüsusiyyətlər** | | **Eksperimental qrup** | | **Kontrol qrup** | |
|---|---|---|---|---|---|
| | | N | % | N | % |
| **Yaş** | *18-25 yaş* | 57 | 38% | 21 | 42% |
| | *25 yaş və yuxarı* | 93 | 62% | 29 | 58% |
| **Cinsiyyət** | *Qadın* | 22 | 15% | 11 | 22% |
| | *Kişi* | 128 | 85% | 39 | 78% |
| **Təhsil** | *Ali* | 83 | 55% | 31 | 62% |
| | *Orta* | 67 | 45% | 19 | 38% |
| **Mədəni durum** | *Evli* | 64 | 43% | 22 | 44% |
| | *Subay* | 41 | 27% | 15 | 30% |
| | *Boşanmış* | 45 | 30% | 13 | 26% |
| **Əmək fəaliyyəti** | *Var* | 28 | 19% | 8 | 16% |
| | *Yox* | 122 | 81% | 42 | 84% |
| **Övlad sayı** | *Yoxdur* | 82 | 55% | 29 | 58% |
| | *1* | 54 | 36% | 15 | 30% |
| | *2 və daha artıq* | 14 | 9% | 6 | 12% |
| **Toplam** | | 150 | 100% | 50 | 100% |

Tədqiq olunanlara psixoaktiv maddələrdən istifadə etmələri ilə bağlı bəzi suallar verilmiş və əldə edilən nəticələr cədvəl 2-də qeyd edilmişdir. "Neçə ildir psixoaktiv maddələrdən istifadə edirsiniz?" sualına eksperimental qrupda tədqiq olunanların 20%-i "1 ildir", 37%-i "2-7 ildir", 43%-i isə "7 və daha yuxarı" cavablarını vermişlər. Kontrol qrupda isə eyni suala tədqiq olunanların 22%-i "1 ildir", 46%-i "2-7 ildir", 32%-i isə "7 və daha yuxarı"cavablarını vermişlər. "Birinci olaraq hansı maddədən istifadə etmisiniz?" sualına eksperimental qrupda tədqiq olunanların 60%-i kannabioiddən, 9%-i psixostimulyatorlardan, 7%-i opioiddən, 2%-i hallüsinogenlərdən, 4%-i depressantlardan, 18%-i alkoqollu içkilərdən sui-istifadə etməyə başladığını qeyd etmişdir. Kontrol qrupda isə tədqiq olunanların 42%-i kannabioiddən, 16%-i psixostimulyatorlardan, 6%-i opioiddən, 4%-i hallüsinogenlərdən, 8%-i tədqiq olunan depressantlardan, 24%-i alkoqollu içkilər vasitəsilə asılılığa başladığını qeyd etmişdir. "Hazırda hansı maddə ilə davam edirsiniz?" sualına eksperimental qrupda tədqiq olunanların  33%-i alkoqolla, 1%-i kannabiodla, 39%-i psixostimulyatorla, 20%-i opiatla, 5%-i hallüsinogenlə, 2%-i depressantlarla

davam etdiyini bildirmişdir. Eksperimental qrupda tədqiq olunanların 38%-i alkoqolla, 6%-i kannabiodla, 32%-i psixostimulyatorla, 12%-i opiadla, 8%-i hallüsinogenlə, 4%-i depressantlarla davam etdiyini bildirmişdir. "İlk dəfə neçə yaşında psixoaktiv maddə istifadə etmisiniz?" sualı anketin növbəti sualı idi. Tədqiqatın aparıldığı eksperimental qrup iştirakçılarının 59%-i "12-18 yaşından", 29%-i "18-25 yaşından", 12%-i isə "25-dən yuxarı yaşda" psixoaktiv maddə istifadə etməyə başladığını bildirmişdir. Kontrol qrupda tədqiq olunanların 62%-i bu suala "12-18 yaşından", 22%-i "18-25 yaşından", 16%-i isə "25-dən yuxarı yaşda" psixoaktiv maddə istifadə etməyə başladığını bildirmişdir. Aşkar edilmişdir ki, tədqiqata cəlb edilən eksperimental qrup iştirakçılarının 59%-i 12-18 yaşından, 29%-i 18-25 yaşında, 12%-i isə 25 yaşından yuxarı yaşda psixoaktiv maddə istifadə etməyə başlamışdır. Kontrol qrupda tədqiq olunanların isə 62%-i 12-18 yaşından, 22%-i 18-25 yaşında, 16%-i isə 25 yaşından yuxarı yaşda maddə istifadə etməyə başlamışdır.

Növbəti sualda isə tədqiq olunanlardan "hal-hazırkı müalicəniz aldığınız neçənci müalicədir?" deyə soruşulmuşdur. Eksperimental qrupda olan tədqiq olunanların 20%-i bu suala cavab olaraq onların ilk müalicəsi olduğunu, 65%-i 2-3-cü müalicəsi olduğunu, 15%-i isə 4 və daha artıq müalicəsi olduğunu qeyd etmişdir. Kontrol qrupdakı tədqiq olunanların 24%-i onların ilk müalicəsi, 56%-i 2-3-cü müalicəsi, 20%-i isə 4 və daha artıq müalicəsi olduğu cavabını vermişdir. Eksperimental qrupdakı tədqiq olunanların 51%-i müalicəyə məcburi, 14%-i real olaraq könüllü, 35%-i isə formal olaraq könüllü cəlb olunduğunu bildirmişdir. Kontrol qrupdakı tədqiq olunanların isə 54%-i məcburi, 18%-i real könüllü, 28%-i formal könüllü cəlb olunduğunu qeyd etmişdir. Eksperimental qrupdakı 17% tədqiq olunanın məhkumluğu var, 83% tədqiq olunanın isə məhkumluğu yoxdur, kontrol qrupdakı 12% tədqiq olunanın məhkumluğu var, 88% tədqiq olunanın isə məhkumluğu yoxdur. Bütün bu suallar üzrə göstəricilər öz əksini cədvəl 2-də tapmışdır.

Aşağıdakı qrafikdə tədqiq olunanların "Dəyişikliyə hazırlıq və müalicəyə sadiqlik" şkalası üzrə maddə asılılığı müalicəsinə başlamaq üçün nə qədər hazır olduqları yoxlanılmışdır. Bu metod hər iki qrupa tətbiq edilmişdir. Müəyyən edilmişdir ki, eksperimental qrupda

tədqiq olunanların 85%-i hələ ki, dəyişikliyə hazırlığın niyyətəqədər mərhələsindədir, 15%-i isə niyyət mərhələsindədir. Kontrol qrupdakı tədqiq olunanların 90%-i isə dəyişikliyə hazırlığın niyyətəqədər mərhələsindədir, 10%-i isə niyyət mərhələsindədir.

**Eksperimental və kontrol qrup tədqiq olunanların demoqrafik əlamətləri**

**Cədvəl 2**

| | | **Eksperimental qrup** | | **Kontrol qrup** | |
|---|---|---|---|---|---|
| | | N | % | N | % |
| **Neçə ildir istifadəçidir?** | 1 | 29 | 20% | 11 | 22% |
| | 2-7 | 56 | 37% | 23 | 46% |
| | 7 və daha yuxarı | 65 | 43% | 16 | 32% |
| **Hansı maddə ilə başlayıb?** | Kannabiodlar | 90 | 60% | 21 | 42% |
| | Psixostimulyatorlar | 13 | 9% | 8 | 16% |
| | Opiatlar | 10 | 7% | 3 | 6% |
| | Hallusinogenlər | 3 | 2% | 2 | 4% |
| | Depresanlar | 6 | 4% | 4 | 8% |
| | Alkoqol | 28 | 18% | 12 | 24% |
| **Hansı maddə ilə davam edir?** | Alkoqol | 50 | 33% | 19 | 38% |
| | Kannabiodlar | 2 | 1% | 3 | 6% |
| | Psixostimulyatorlar | 58 | 39% | 16 | 32% |
| | Opiatlar | 30 | 20% | 6 | 12% |
| | Hallusinogenlər | 7 | 5% | 4 | 8% |
| | Depresanlar | 3 | 2% | 2 | 4% |
| **İlk dəfə neçə yaşında istifadə edib?** | 12-18 yaş | 88 | 59% | 31 | 62% |
| | 18-25 yaş | 43 | 29% | 11 | 22% |
| | 25 yaş və daha yuxarı | 19 | 12% | 8 | 16% |

**Cədvəl 2-nin ardı**

| | | | | | |
|---|---|---|---|---|---|
| **Neçənci müalicəsidir?** | 1 | 30 | 20% | 12 | 24% |
| | 2-3 | 97 | 65% | 28 | 56% |
| | 4 və daha artıq | 23 | 15% | 10 | 20% |
| **Müalicəyə cəlb olunub** | Məcburi müalicə | 76 | 51% | 27 | 54% |
| | Real könüllü | 21 | 14% | 9 | 18% |
| | Formal könüllü | 53 | 35% | 14 | 28% |
| **Məhkumluğu** | Var | 26 | 17% | 6 | 12% |
| | Yox | 124 | 83% | 44 | 88% |
| **Toplam** | | 150 | 100% | 50 | 100% |




**Şəkil 1.** Eksperimental və kontrol qrupda tədqiq olunanların "Dəyişikliyə hazırlıq və müalicəyə sadiqlik" şkalası üzrə pre-test nəticələri

Tədqiqata qatılan könüllünün "Dəyişikliyə hazırlıq və müalicəyə sadiqlik" şkalasının pre-test nəticəsi 19 baldır. Bu o deməkdir ki, tədqiq olunan dəyişikliyə hazırlığın niyyətəqədər mərhələsindədir.

Daha sonra tədqiq olunanları digər psixoloji aspektlərdən qiymətləndirmək üçün onlarla müxtəlif psixoloji testlər keçirilmiş və şkalalar tətbiq olunmuşdur. Aşağıdakı qrafikdə "Hamiltonun Təşviş Reytinqi Cədvəli"nin nəticələri göstərilmişdir. Müəyyən edilmişdir ki, eksperimental qrupda tədqiq olunanların 5%-də yüngül dərəcəli

təşviş pozuntusu, 13%-də orta dərəcəli, 82%-də isə ağır dərəcəli təşviş pozuntusu qeydə alınmışdır. Kontrol qrupda isə nəticələr bu cür olmuşdur. Belə ki, tədqiq olunanların 8%-də yüngül dərəcəli təşviş pozuntusu, 26%-də orta dərəcəli, 66%-də isə ağır dərəcəli təşviş pozuntusu müəyyən edilmişdir. Dediklərimizi qrafik 2-də aydın şəkildə görmək mümkündür.




**Şəkil 2.** Eksperimental və kontrol qrup tədqiq olunanların "Hamiltonun Təşviş Reytinqi" cədvəlinin pre-test nəticələri

Qrafik 3-də "Hamiltonun Depressiya Reytinqi Cədvəli"nin nəticələri verilmişdir. Alınan nəticələrə görə tədqiq olunanların eksperimental qrupda nəticələri aşağıdakı kimi olmuşdur: iştirakçıların 1%-i normadadır, 9%-də yüngül dərəcəli depressiv pozuntu, 14%-də orta dərəcəli, 20%-də ağır dərəcəli, 56%-də kəskin dərəcəli depressiv pozuntu özünü göstərir. Kontrol qrupda tədqiq olunanların heç birində nəticələr normal olmamışdır. Bundan başqa, onların 4%-də yüngül dərəcəli depressiv pozuntu, 8%-də orta dərəcəli, 24%-də ağır dərəcəli, 56%-də kəskin dərəcəli depressiv pozuntu müşahidə edilmişdir. Bütün bu qeyd etdiyimiz nəticə göstəriciləri də qrafik 3-də aydın şəkildə təsvir edilmişdir ki, onlara da aşağıda nəzər salmaq mümkündür.

Növbəti bənddə tədqiq olunanların dəyişikliyə istəkliliyi və müalicəyə sadiqliyi ilə fobiyalı təşviş alt şkalası arasındakı əlaqəyə baxılmışdır, burada statistik əhəmiyyətli tərs mütənasib əlaqə olduğu

müəyyən edilmişdir (p<0,05). Tədqiq olunanın fobiyalı təşviş səviyyəsi artdıqca dəyişikliyə istəyi və müalicəyə sadiq qalması azalmağa başlayır və ya əksinə. Spearman korrelyasiyasına görə dəyişikliyə istəkliliyi və müalicəyə sadiqlik ilə paranoid düşüncə arasında statistik olaraq tərs istiqamətdə güclü əlaqə mövcuddur (p<0,05). Bu, o deməkdir ki, tədqiq olunanlarda paranoid düşüncə artdıqca dəyişikliyə istəklilik azalır. Psixotizm alt şkalası ilə dəyişikliyə istəklilik və müalicəyə sadiqlik şkalası arasında apardığımız təhlillər zamanı aşkar edilmişdir ki, statistik olaraq əks istiqamətdə əhəmiyyətli əlaqə mövcuddur (p<0,05). Tədqiqata cəlb edilən istirakçılarda psixotizm əlamətləri artdıqca dəyişikliyə istəklilik və müalicəyə sadiqliyi azalır və ya əksinə, psixotizm əlamətləri azaldıqca dəyişikliyə istəklilik və müalicəyə sadiqlik artır. Bütün bunlar cadval 3-da öz əksini tapmışdır.




**Şək. 3.** Eksperimental və kontrol qrupda tədqiq olunanların “Hamiltonun Depressiya Reytinqi” cədvəli üzrə pre-test nəticələri

Cədvəl 3-də eksperimental qrupda “Dəyişikliyə istəklilik və müalicəyə sadiqlik” şkalası ilə demoqrafik əlamətlərin qarşılaşdırılması göstərilmişdir. Bu qarşılaşdırma zamanı Mann-Whitney U testi, Kruskal-Wallis H və Anova testinin nəticələrinə baxılmışdır. Mann-Whitney U testinin nəticələrinə görə, tədqiq olunanların dəyişikliyə

istəyi və müalicəyə davamlılığı ilə yaşı arasında statistik əhəmiyyətli əlaqə müəyyən edilmişdir ($p<0,05$).

### Eksperimental qrupda "Dəyişikliyə istəklilik və müalicəyə sadiqlik" şkalası ilə "Qısa simptom envanteri" arasında Spearman korrelyasiya əlaqələrinin nəticələri

**Cədvəl 3**

| **Dəyişikliyə istəklilik və müalicəyə sadiqlik şkalası** | | |
|---|---|---|
| **Somatizasiya** | | -0,101** |
| | | **0,000** |
| | | 145 |
| **Obsessiv-kompulsiv** | | -0,224** |
| | | **0,000** |
| | | 145 |
| **Şəxsiyyətlərarası münasibətlər** | | 0,187** |
| | | **0,002** |
| | | 145 |
| **Depressiya** | | -0,387** |
| | | **0,000** |
| | | 145 |
| **Təşviş pozuntusu** | | -0,423** |
| | | **0,000** |
| | | 145 |
| **Kin, düşmənçilik** | | -0,324** |
| | | **0,000** |
| | | 145 |
| **Fobiyalı təşviş** | | -0,223** |
| | | **0,004** |
| | | 145 |
| **Paranoid düşüncə** | | -0,121** |
| | | **0,000** |
| | | 145 |
| **Psixotizm** | | -0,116** |
| | | **0,000** |
| | | 145 |

Tədqiq olunanların neçə ildir istifadəçi olması ilə dəyişikliyə istəyi və müalicəyə davamlılığı arasında əlaqəyə də baxılmışdır. Anova testinin nəticələrinə görə, tədqiq olunanların neçə ildir istifa-

dəçi olması ilə dəyişikliyə istəyi və müalicəyə davamlılığı arasında statistik əhəmiyyətli güclü əlaqə mövcuddur ($p<0,05$). Belə ki, müəyyən edilmişdir ki, il sayı artdıqca dəyişikliyə istək də azalmağa başlayır. 1 il maddə istifadəçisi olan tədqiq olunanlar 2-3 ildir, 4 və daha artıq il istifadəçi olan tədqiq olunanlara nisbətən dəyişikliyə daha çox istəklidirlər. 2-3 il istifadəçi olan qrup da 4 və daha artıq il istifadəçi olan tədqiq olunanlara nisbətən daha çox dəyişikliyə istəkli və müalicəyə sadiqdirlər.

**Apardığımız tədqiqat bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir:**

"Şəxsin Sağlamlığının Qiymətləndirilməsi (HONOS)" şkalası üzrə pre-test nəticələri belə olmuşdur: tədqiq olunanların eksperimental qrupunun 1%-ində problem yoxdur və ya cüzi problem vardır, 5%-də yüngül dərəcədə ifadə olunmuş problem, 25%-də orta dərəcədə ifadə olunmuş problem, 69%-də ağır dərəcədə ifadə olunmuş problem müşahidə edilmişdir. Kontrol qrupda tədqiq olunanların heç birində nəticələr norma daxilində olmamışdır, bundan başqa, tədqiq olunanların 6%-də yüngül dərəcədə ifadə olunmuş problem, 36%-də orta dərəcədə ifadə olunmuş problem, 58%-də ağır dərəcədə ifadə olunmuş problem özünü göstərmişdir.

Bu şkala üzrə tədqiq olunanlar arasında keçirilmiş post-test nəticələri bu cür olmuşdur ki, eksperimental qrup iştirakçılarının 67%-ində problem yoxdur və ya cüzi problem vardır, 25%-də yüngül dərəcədə ifadə olunmuş problem, 6%-də orta dərəcədə ifadə olunmuş problem, 2%-də ağır dərəcədə ifadə olunmuş problem müşahidə edilmişdir. Kontrol qrupda tədqiq olunanların heç birində nəticələr norma daxilində olmamışdır, 4%-də yüngül dərəcədə ifadə olunmuş problem, 23%-də orta dərəcədə ifadə olunmuş problem, 73%-də ağır dərəcədə ifadə olunmuş problem özünü göstərmişdir.

Qısa Simptom Envanterinin nəticələri aşağıdakı kimi olmuşdur:

Pre-test nəticələri: somatizasiya şkalasında eksperimental qrupda 7% tədqiq olunan normal, 8% tədqiq olunan aşağı, 23% tədqiq olunan orta, 62% tədqiq olunan isə ağır dərəcədə somatizasiya problemi yaşayır, kontrol qrupda isə 6% tədqiq olunanda normal, 22% tədqiq olunanda aşağı, 28% tədqiq olunanda orta, 44% tədqiq olu-

nanda isə ağır dərəcədə somatizasiya problemi müşahidə edilmişdir.

Post-test nəticələri: somatizasiya alt şkalasının nəticələrinə görə müəyyən edilmişdir ki, eksperimental qrupda 70% tədqiq olunan normal, 21% tədqiq olunan aşağı, 5% tədqiq olunan orta, 4% tədqiq olunan isə ağır dərəcədə bu problemi yaşayır, kontrol qrupda isə 4% tədqiq olunanda normal, 25% tədqiq olunanda aşağı, 29% tədqiq olunanda orta, 42% tədqiq olunanda isə ağır dərəcədə somatizasiya problemi müşahidə edilmişdir.

Obsessiv kompulsiv pozuntu alt şkalası üzrə pre-test nəticələri: eksperimental qrupda tədqiq olunanların 9%-i normaldır, 10%-i aşağı, 23%-i orta, 58% tədqiq olunan isə ağır dərəcədə obsessiv-kompulsiv pozuntu yaşayır. Kontrol qrupda tədqiq olunanların 10%-i normal nəticə göstərmiş, 18% tədqiq olunanda aşağı 32% tədqiq olunanda orta, 40% tədqiq olunanda isə ağır dərəcədə obsessiv-kompulsiv pozuntu müşahidə edilmişdir.

Bu alt şkala üzrə post-test nəticələri isə belə olmuşdur: obsessiv-kompulsiv pozuntu alt şkalasının nəticələrinə görə isə eksperimental qrupda tədqiq olunanların 39%-i normaldır, 33%-i aşağı, 15%-i orta, 13%-i isə ağır dərəcədə obsessiv-kompulsiv pozuntu yaşayır. Kontrol qrupda 8% tədqiq olunan normal, 21% tədqiq olunanda aşağı, 27% tədqiq olunanda orta, 44% tədqiq olunanda isə ağır dərəcədə obsessiv-kompulsiv pozuntu müşahidə edilmişdir.

Pre-test nəticələri: eksperimental qrupda tədqiq olunanların heç birinin şəxsiyyətlərarası münasibətlərində normal səviyyə müşahidə edilməmişdir, bundan başqa, tədqiq olunanların 1%-i aşağı, 16%-i orta, 83%-i isə ağır dərəcədə şəxsiyyətlərarası münasibətlərlə bağlı problemlər yaşayır. Kontrol qrupda tədqiq olunanların heç birinin şəxsiyyətlərarası münasibətlərində normal və aşağı dərəcədə probleme rast gəlinməmişdir, tədqiq olunanların 22%-i orta, 78%-i ağır dərəcəli şəxsiyyətlərarası münasibətlər problemi yaşayır.

Post-test nəticələri isə bu cür olmuşdur: eksperimental qrupda tədqiq olunanların 60%-i normal nəticə göstərmiş, şəxsiyyətlərarası münasibətlərlə bağlı tədqiq olunanların 21%-i aşağı, 7%-i orta, 23%-i isə ağır dərəcədə problemlər yaşayır. Kontrol qrupda tədqiq olunanların heç birində normal dərəcəli şəxsiyyətlərarası münasibətlərə rast gəlinməmişdir, tədqiq olunanların 4%-i aşağı, 23%-i orta, 73%-i ağır dərəcəli

şəxsiyyətlərarası münasibətlər problemi yaşayır.

Pre-test nəticələri-eksperimental qrupda tədqiq olunanların 2%-i normaldır, 11%-də aşağı, 13%-də orta, 74%-də ağır depressiya müşahidə edilmişdir. Kontrol qrupda isə 2%-də aşağı, 26%-də orta, 72%-də ağır depressiya müşahidə edilmişdir. Kontrol qrupda depressiyanın normal səviyyəsi müşahidə edilməmişdir.

Post-test nəticələri-eksperimental qrupda tədqiq olunanların 61%-i normal nəticə göstərmiş, bundan başqa, tədqiq olunanların 13%-də aşağı, 6%-də orta, 20%-də ağır depressiya müşahidə edilmişdir. Kontrol qrupda isə tədqiq olunanların 4%-də aşağı, 21%-də orta, 75%-də ağır depressiya müşahidə edilmişdir. Kontrol qrupda depressiyanın normal səviyyəsi müşahidə edilməmişdir.

Eksperimental qrupda tədqiq olunanların təşviş pozuntusu 5%-də aşağı dərəcəli, 9%-də isə orta dərəcəli, 85%-də ağır dərəcəli təşviş pozuntusu qeydə alınmışdır. Kontrol qrupda isə nəticələr belə olmuşdur: tədqiq olunanların 8%-də aşağı dərəcəli təşviş pozuntusu, 24%-də orta dərəcəli, 68%-də isə ağır dərəcəli təşviş pozuntusu müəyyən edilmişdir. Kontrol qrupda təşviş pozuntusunun normal səviyyəsi müşahidə edilməmişdir.

Post-test nəticələri-eksperimental qrupda tədqiq olunanların 60%-də normal dərəcəli təşviş pozuntusu, 17%-də aşağı dərəcəli, 7%-də isə orta dərəcəli, 16%-də ağır dərəcəli təşviş pozuntusu qeydə alınmışdır. Kontrol qrupda isə nəticələr belə olmuşdur: təşviş pozuntusunun normal səviyyəsi müşahidə edilməmişdir. Tədqiq olunanların 6%-də aşağı dərəcəli təşviş pozuntusu, 29%-də orta dərəcəli, 65%-də isə ağır dərəcəli təşviş pozuntusu müəyyən edilmişdir.

Pre-test nəticələri-eksperimental qrupda tədqiq olunanlar arasında paranoid düşüncə şkalası üzrə əldə olunan nəticələrə görə aşkaredilmişdir ki, 1% tədqiq olunan normal, 8% tədqiq olunan aşağı, 23% tədqiq olunan orta, 68% tədqiq olunan ağır dərəcədə paranoid pozuntu yaşayır. Kontrol qrupda tədqiq olunanların 2%-i normal, 6% tədqiq olunanda aşağı, 14% tədqiq olunanda orta, 78% tədqiq olunanda isə ağır dərəcədə paranoid pozuntu aşkar edilmişdir.

Post-test nəticələri-eksperimental qrupda tədqiq olunanların paranoid düşüncə şkalası üzrə nəticələrinə görə, 53% tədqiq olunan normal, 28% tədqiq olunan aşağı, 8% tədqiq olunan orta, 11% tədqiq

olunan ağır dərəcədə paranoid pozuntu yaşayır. Kontrol qrupda tədqiq olunanların 6%-i aşağı, 15%-i orta, 79%-i isə ağır dərəcədə paranoid pozuntu nümayiş etdirmişdir. Bu qrupda tədqiq olunanların normal səviyyəsinə rast gəlinməmişdir.

Pre-test nəticələri-eksperimental qrupda psixotizmin normal səviyyəsində olan tədqiq olunana rast gəlinməmişdir. Bundan başqa, 4% tədqiq olunanda aşağı, 19% tədqiq olunanda orta, 77% tədqiq olunanda isə ağır dərəcədə psixotizm əlamətlərinə rast gəlinmişdir. Kontrol qrupdakı tədqiq olunanlar arasında da eksperimental qrupdakı kimi psixotizmin normal səviyyəsi müşahidə edilməmişdir. Bundan əlavə, 4% tədqiq olunanda aşağı, 20% tədqiq olunanda orta, 76% tədqiq olunanda isə ağır dərəcədə psixotizm əlamətləri aşkar edilmişdir.

Post-test nəticələri-eksperimental qrupda tədqiq olunanların 39%-ində normal psixotizm aşkar edilmişdir, 36% tədqiq olunanda aşağı, 21% tədqiq olunanda orta, 4% tədqiq olunanda isə ağır dərəcədə psixotizm əlamətlərinə rast gəlinmişdir. Kontrol qrupda tədqiq olunanların 6%-ində normal səviyyə, 21%-ində aşağı, 73%-ində orta, 4%-ində isə ağır dərəcədə psixotizm əlamətləri aşkar edilmişdir.

Mann-Whitney U testinin nəticələrinə görə, tədqiq olunanların əmək fəaliyyəti ilə dəyişikliyə istəyi və müalicəyə davamlılığı arasında statistik əlaqə müəyyən edilməmişdir ($p>0,05$).

Anova testinin nəticələrinə görə, tədqiqata cəlb edilən tədqiq olunanların övlad sayı ilə dəyişikliyə istəyi arasında statistik anlamlı bir əlaqə mövcuddur ($p<0,05$). Belə ki, 2 və daha artıq övladı olan tədqiq olunanlar 1 övladı olan və heç övladı olmayan tədqiq olunanlara nisbətən dəyişikliyə daha çox istəklidirlər, 1 övladı olan tədqiq olunanlar isə heç övladı olmayanlara nisbətən daha çox dəyişikliyə istəklidirlər.

## Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap olunmuş əsərlərində öz əksini tapmışdır:

1. Allahverdiyev, R.F. Psixoaktiv maddə qəbulunun insanda yaratdığı psixi və fiziki asılılıqların təhlili //Bakı Dövlət Universitetinin Psixologiya Jurnalı. - Bakı: -2016, №3, - s. 22-29.
2. Allahverdiyev, R.F. Psixoaktiv maddə istifadəçilərinin reabilitasiyasının konseptual əsasları //Bakı Dövlət Universitetinin. Psixologiya Jurnalı. - Bakı: 2018, №2, - s.24-34.

3. Allahverdiyev, R.F. Psixoaktiv maddələrdən istifadə zamanı yaranan psixoloji asılılıq probelminə elmi yanaşmalar // Bakı Qızlar Universitetinin. Elmi Əsərlər jurnalı. - Bakı: -2019, №1, - s. 234-247.
4. Allahverdiyev, R.F., Javadi Kyan, T., Məmmədov, X.T. Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyasında koqnitiv davranış terapiyasının həyata keçirilməsi qaydaları və tətbiqi yolları // Bakı Dövlət Universitetinin. Psixologiya jurnalı. - Bakı: -2020, №1, - s. 38-58.
5. Mustafayev, M.H., Allahverdiyev, R.F. Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyasında həyata keçirilən terapiya üsulları və müasir yanaşmalar. // Bakı Dövlət Universitetinin. Psixologiya jurnalı. - Bakı: -2020, №2, - s. 55-65.
6. Allahverdiyev, R.F., Javadi Kyan. T., Məmmədov X.T. Metadonla müalicə olunan maddə istifadəçilərində koqnitiv davranış qrup terapiyası metodu ilə təşvişin və stressin idarə olunması. //Bakı Qızlar Universitetinin. Elmi Əsərlər jurnalı. - Bakı: -2020, №1, - s. 102-105.
7. Аллахвердиев, Р.Ф. Исследование эффективности управления тревогой и стрессом посредством когнитивно-поведе нческой групповой терапии у лиц употребляющих психоактивные вещества и лечащихся методоном. // Причорноморський Науково-Дослідний Інститут Економіки Та Інновацій.Науковий Журнал "ГАБІТУС", - 2022, №36, - с. 103-109.
8. Allahverdiyev, R.F. Psixoaktiv maddə asılılığının reabilitasiyasında həyata keçirilən Motivasiyaedici Görüş Metodunun nəzəri təhlili və tətbiqi qaydası. / Psixologiyanın aktual problemlərinə həsr olunmuş beynəlxalq konfrans. Qərbi Kaspi Universiteti. - Bakı: -2021, - s. 29-36.
9. Allahverdiyev, R.F. Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyası problemi. / Psixologiya zirvəsi: problemlər, perspektivlər və yeni yanaşmalar. Beynəlxalq Elmi-Praktik konfransın materialları. - Bakı: -2020, №1, - s. 85-86.
10. Allahverdiyev, R.F. Social-psychological rehabilitation of psychoactive substance users // Наука и образование в условиях цифровой трансформации: сборник научных трудов. - Казань: -2023, №1, - с. 7-14.

11. Аллахвердиев, Р.Ф. Когнитивно поведенческая терапия для зависимых от психоактивных веществ: степень разработанности и правила применения в реальности. / LXI Международная научно-практическая конференция. «Научный форум: инновационная наука». -Москва: -2023, - с. 18-23.

Dissertasiyanın müdafiəsi 30 may 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı şəhəri, Akademik Zahid Khalilov küçəsi 33, 2 saylı tədris korpusu, 203-cü auditoriya, e-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir: http:/bsu.edu.az.

Avtoreferat 28 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2025
Kağızın formatı: 60x84 1/16
Həcm: 41528
Tiraj: 100